

ARZU MÜZƏFFƏR QIZI NURİ

## DƏYMƏ

Mən kövrək insanam, a dərdin alım,
Sizlayan yaralı dilimə dəymə.
İzin ver, dağların seyrinə dalım,
Telimi oxsayan yelimə dəymə.

Vətəndən aralı, eldən aralı,
Qəribəm gəzirəm başı havalı.
Mən bir elqızıyam ruhu yaralı,
Torpağa qarışmış külümə dəymə.

Həsrətin çəkdiyim ana torpağı,
Agacından qopub solan yarpağı,
Son ümidə bənzər pöhrə budağı,
Sinəmdə bəslənən gulumə dəymə.

Suyundan içdiyim buz bulaqları,
Gəzdiyim o gözəl tər yaylaqları,
Yadıma saldıqca barlı bağları,
İçimdə ağlayan çölümə dəymə.

## SƏNDƏN SONRA

Səndən sonra nələr oldu, bildinmi?
Bildinmi necədi əhvalim-halim.
Mənim yuxularda tək təsəllimdin,
İndi yuxuma da gəlmirsən, zalım.

Təkliyi sevərdim hey səndən sonra,
İstərdim mən sənli xəyala dalım.
İndi xəyal belə qura bilmirəm,
İndi xəyal özü olub xəyalım.

Sən məni nə yaman tez unutmusan,
Mən səni hələ də unudanmadım.
İstədim sənin tək sənə yad olam
Baxdim ki, qəlbimə yazılıb adın.

## XATİRƏLƏRİM

Daşı, torpağı da unudub məni,
Elə alt-üst olub xatirələrim.
Özüm də bilmirəm heç necə ötdü
Uşaqliq illərim, gənclik illərim.

Elə bil bu ömrü mən yaşamadım,
Uşaqlıq nə zaman məni tərk etdi.
Xəbərim olmadı, bir də oyandım,
Gənclik uşaqlığı apardı getdi.

Bir korpə ağlayır içimdə qəmli,
Keçmişləri anıb yaman doluram.
Atali-Anali ötən günləri,
Yadıma salıram, kövrək oluram.

Bəlkə qocalıram, ya yaşlanıram,
Bilirəm saçlarım olubdu dən-dən.
Ata ocagında ötən illərdən
Xəbər almaq üçün indi gəzirəm.

## BİR DƏ GÖRƏCƏKSƏN

Bir də görəcəksən çıxıb getmişəm...
Özün öz-özünü danlayacaqsan.
Bu böyük sevgini, bu böyük eşqi...
Məni itirəndə anlayacaqsan.

Yadına salarsan ötən günləri…
Yadına salarsan sənə möhtacdım.
Mən səni tanıyıb sevəndən bəri...
Sevginə doymadım, sevginə acdım.

Yoruldum, usandım, daha əl çəkdim…
Daha bu sevgiyə yoxdu taqətim.
Solan yarpaq kimi, qönçə gül kimi…
Daha soldu... bitdi bu məhəbbətim.





## VƏTƏNİM

Vurğunam Vətənin hər guşəsinə,
Dahi şairlərin məskəni yurdum.
Vurğunam dağına, şəlaləsinə,
Mənim gözəlliklər gülşəni yurdum.

Ağaclar yarpağı sevdiyi qədər
Sevirəm yurdumun hər yarpağını.
Ayla gün torpağı sevdiyi qədər,
Mən də çox sevirəm öz torpağımı.

Qayası mənimdi, daşı mənimdi,
Ruhuma xoş gəlir zirvədə qarı.
Şehlərdən nəm tutan yaşı mənimdi,
Doğmadı, əzizdi bağlarda barı.

Yansın Qarabagda sönən çıraqlar,
Səsim igidlərin səsinə çatsın.
Xosbəxt böyüsünlər korpə usaqlar,
Vətən ogulları əhdinə çatsın.

## MƏNİM SEVGİM

Mən rəsmini istəmirəm sevgimin,
Mənim sevgim yer üzündən uzaqdı.
Həsrət dolu vüsalıdı qəlbimin,
Mənim sevgim səmalara qonaqdı.

Hansı rəssam çəkə bilər bu eşqi?
Mənim sevgim, Vətənimdi, elimdi.
Dərələrim, dağlarımdı, selimdi,
Həm Anamdı, həm dinimdi, dilimdi.

Əsil sevgi ömrü boyu elimdi,
Hansı rəssam çəkə bilər bu elmi?
Mənim sevgim bir nəfərə deyil ki,
Qarşısında diz qoyduğum bayraqdı.

Hər an, hər gün mənim könlüm deyir ki,
Mənim sevgim, kainatdı, torpaqdı.
Hansı rəssam çəkə bilər bu esqi?
Mənim sevgim bir ümiddi, baxışdı.

Çat-çat olmuş səhralara yağışdı,
Məniim sevgim ilmələrdə naxışdı.
Mələklər də bu sevgidən danışdı,
Hansı rəssam çəkə bilər bu nəqşi?

## SÖZ

Mən sözə bənd olub sözu sevəndən,
Əsib ürəyimin incə telləri.
Hər sətrə, misraya vuluduqca mən,
Ruhumu oxsayib şair qələmi.

Soz haqqdan gəlibdi, Haqqin səsidi.
Şair ürəyinin sərdabəsidi.
Əsil söz ustadi yaxşi bilir ki,
Tanrının şairə hədiyyəsidi.

Ləli-cəvahirat zərrəsidi söz,
Dinməyən dərdlərin çarəsidi söz.
Dılə gətrilməyib ürəyə axan,
Şairin ilhami, naləsidi söz.

Elə söz söyləyək hikmətli olsun,
Hər bəndi, misrası qüvvətli olsun.
Sözlə bu həyatda elə iz qoyaq,
Tarixlər boyunca qüdrəti olsun.

## GEDİM

Tanrım, al qoynuna, məni də apar,
Yagan yagışlarda, yuyulub gedim.
Sinəmdən hicranı, həsrəti qopar,
Saflaşıb, paklaşıb durulub gedim.

Ərşə çəkilibdi bulud yuxusu,
Ulduza qoşulub axıb çoxusu.
Əlimdə bir ovuc torpaq qoxusu,
Vətən sevgisinə tutulub gedim.

Bükülüm səmanın göy qurşağına,
Qarışım aləmin yaraşığına.
Sarılım gecənin ay işığına,
Elimə, obama vurulub gedim.

Oxşasın qəlbimi al-yaşıl meşə,
Boynu bükük baxır aşiq bənövşə.
Çevrilim eşq adlı oda, atəşə,
Sevən könüllərdə qurulub gedim.

Bir gül qönçəsində, yarpağa dönüm,
Təbiət qoynunda növrağa dönum.
Abu-həyat adlı bulağa dönüm,
Qayalar içindən burulub gedim.

## DUNYANI

Sevirəm sevincli, qəmli Dunyanı,
Sevirəm dumanlı, çənli Dunyanı.
Əhdinə vəfalı insanlarıyla...
Sevirəm sən olan, sənli Dünyanı.

Sevirəm yağışın şır-şır yağmasın,
Sevirəm şimşəyin gur-gur çaxmasın.
Bu gözəl dünyanı gözəlləşdirən
Çayların, sularin şur-şur axmasın.

Sevirəm dağları qarlı Dunyanı,
İnsanları mənən varlı Dünyanı.
Hər evə, ocağa ruzu boxş edən
Sevirəm bəhərli-barlı Dunyanı.

Sevirəm Günəşin nur saçmasını,
Körpə qanadların gül açmasını.
Sevirəm torpağı, bütün cahanı,
Öz doğma yurdumu, Azərbaycanı!